# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KONTRAKT KORPORASİYASI "AZƏRKONTRAKT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Xüsusi Məqsədli Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KONTRAKT KORPORASİYASI "AZƏRKONTRAKT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARI 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ: | |
| Mənfəət və zərər və digər məcmu gəlir haqqında xüsusi məqsədli hesabat | 5 |
| Maliyyə vəziyyəti haqqında xüsusi məqsədli hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında xüsusi məqsədli hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında xüsusi məqsədli hesabat | 8 |
| Xüsusi məqsədli maliyyə hesabatları üzrə qeydlər | 9-41 |

# XÜSUSİ MƏQSƏDLİ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") xüsusi məqsədli maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin il üzrə əməliyyat nəticələrini, həmin tarixdə başa çatmış il üzrə kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən xüsusi məqsədli maliyyə hesabatlarının, bu xüsusi məqsədli maliyyə hesabatlarının 3 saylı Qeydində müəyyən edilmiş mühasibat uçotunun əsaslarına müfaviq olaraq düzgün qaydada hazırlanması üçün məsuliyyət daşıyır.

Xüsusi məqsədli maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Uçot siyasətinə riayət olunması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun xüsusi məqsədli maliyyə hesabatında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəyi halda, hesabat tarixinə xüsusi məqsədli maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə vəziyyətini istənilən vaxt ağlabatan dəqiqliklə açıqlayan və Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatlarının uçot siyasətinə uyğunluğunu düzgün şəkildə əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə hazırlanmış xüsusi məqsədli maliyyə hesabatları 22 may 2023-cü il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Güləddin Dadaşov** | **Şahnisə Nuriyeva** |
| **Sədr müavini** | **Maliyyə şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən** |
| 22 may 2023-cü il | 22 may 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

**T:** +994 (12) 404 7 666
**F:** +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:

***Rəy***

Biz Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında xüsusi məqsədli hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər və digər məcmu gəlir haqqında xüsusi məqsədli hesabatdan, kapitalda dəyişikliklər haqqında xüsusi məqsədli hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında xüsusi məqsədli hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, xüsusi məqsədli maliyyə hesabatlarına edilən qeydlərdən ibarət xüsusi məqsədli maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş xüsusi məqsədli maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini və habelə həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini xüsusi məqsədli maliyyə hesabatlarının 3 saylı Qeydində müəyyən edilmiş mühasibat uçotunun əsaslarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Xüsusi Məqsədli Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***İzahedici Paraqraf – Mühasibat Uçotunun Əsasları, İstifadə və Paylaşma üzrə Məhdudiyyət***

Biz mühasibat uçotunun əsaslarının təsvir edildiyi xüsusi məqsədli maliyyə hesabatlarının 3 saylı Qeydinə diqqət yetiririk. Xüsusi məqsədli maliyyə hesabatları, Cəmiyyətin xüsusi məqsədli maliyyə vəziyyətinin və əməliyyat nəticələrinin qiymətləndirilməsində Cəmiyyətə köməklik göstərmək məqsədilə hazırlanmışdır. Nəticədə, xüsusi məqsədli maliyyə hesabatları digər məqsədlər üçün uyğun olmaya bilər. Bizim bu məsələ ilə bağlı rəyimiz şərti xarakter daşımır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

***Xüsusi Məqsədli Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik xüsusi məqsədli maliyyə hesabatlarının, xüsusi məqsədli maliyyə hesabatlarının 3 saylı Qeydində müəyyən edilmiş mühasibat uçotunun əsaslarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və xüsusi məqsədli maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, fırıldaqçılıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Xüsusi məqsədli maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlılığı prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Xüsusi Məqsədli Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz xüsusi məqsədli maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış xüsusi məqsədli maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Xüsusi məqsədli maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlar və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda xüsusi məqsədli maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, xüsusi məqsədli maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin xüsusi məqsədli maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KONTRAKT KORPORASİYASI "AZƏRKONTRAKT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Təbii qazın satışından əldə edilən gəlir | 8 | 1,674,714,984 | 1,200,043,556 |
| **Əməliyyat xərcləri** | | | |
| Təbii qazın maya dəyəri | | (1,408,609,477) | (1,025,813,907) |
| Nəql xərcləri | | (74,645,875) | (59,393,046) |
| Təbii qazın yeraltı qaz anbarına vurulma xərcləri | | (13,677,899) | (15,416,624) |
| Təbii qazın yeraltı qaz anbarından götürülmə xərcləri | | (11,276,986) | (4,023,950) |
| Yeraltı qaz anbarı ilə bağlı itkilər | | (7,261,374) | (5,667,953) |
| Maqistral xəttlər üzrə itkilər | | (4,793,219) | (3,608,201) |
| Texnoloji sərfiyyat | | (1,948,934) | (3,076,673) |
| İşçi heyəti ilə bağlı xərclər | | (1,157,683) | (64,909) |
| Tranzit haqları | | (59,112) | (3,115,710) |
| **Cəmi əməliyyat xərcləri** | | **(1,523,430,559)** | **(1,120,180,973)** |
| **Digər gəlirlər/(xərclər)** | | | |
| Təbii qazın nəqlindən əldə edilən gəlir | | 34,774,305 | 25,623,036 |
| Faiz gəliri | | 1,361,374 | - |
| Faiz xərci | | (825,038) | (745,403) |
| Digər gəlirlər/(xərclər), xalis | 9 | (1,377,729) | (370,390) |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **185,217,337** | **104,369,826** |
| Mənfəət vergisi xərci | 10 | (37,113,668) | (20,873,965) |
| **İl üzrə xalis mənfəət** | | **148,103,669** | **83,495,861** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **148,103,669** | **83,495,861** |

**Rəhbərliyin adından:**

**Güləddin Dadaşov**
**Sədr müavini**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Şahnisə Nuriyeva**
**Maliyyə şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrdə təqdim edilmiş qeydlər xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT
31 DEKABR 2022-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 205,903,189 | 91,897,090 |
| Debitor borcları | 12 | 76,069,182 | 37,854,374 |
| Təchizatçılara ödənilmiş avans ödənişləri | 13 | 34,747,582 | 438,153 |
| Mal-material ehtiyatları | 14 | 185,409,430 | 182,226,113 |
| Digər cari aktivlər | 15 | 70,209,494 | 45,912,576 |
| **Cəmi cari aktivlər** | | **572,338,877** | **358,328,306** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 16 | 346,389 | - |
| Təxirə salınmış vergi aktivləri | 10 | 15,345 | 49,158 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **361,734** | **49,158** |
| **CƏMİ AKTİVLƏR** | | **572,700,611** | **358,377,464** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 17 | 341,092,046 | 181,188,165 |
| Borc alınmış vəsaitlər | 18 | - | 93,684,403 |
| **Cəmi cari öhdəliklər** | | **341,092,046** | **274,872,568** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **341,092,046** | **274,872,568** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 19 | 13,538,682 | 13,538,682 |
| Digər kapital | 20 | (13,538,682) | (13,538,682) |
| Bölüşdürülməmiş mənfəət | | 231,608,565 | 83,504,896 |
| **Cəmi kapital** | | **231,608,565** | **83,504,896** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **572,700,611** | **358,377,464** |

**Rəhbərliyin adından:**

Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası «AZƏRKONTRAKT» Səhmdar Cəmiyyəti

**Güləddin Dadaşov**
**Sədr müavini**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Şahnisə Nuriyeva**
**Maliyyə şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrdə təqdim edilmiş qeydlər xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **13,538,682** | **(13,538,682)** | **9,035** | **9,035** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 83,495,861 | 83,495,861 |
| **31 dekabr 2021-ci il** | **13,538,682** | **(13,538,682)** | **83,504,896** | **83,504,896** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 148,103,669 | 148,103,669 |
| **31 dekabr 2022-ci il** | **13,538,682** | **(13,538,682)** | **231,608,565** | **231,608,565** |

**Rəhbərliyin adından:**

**Güləddin Dadaşov**
**Sədr müavini**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Şahnisə Nuriyeva**
**Maliyyə şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-41-ci səhifələrdə təqdim edilmiş qeydlər xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KONTRAKT KORPORASİYASI "AZƏRKONTRAKT" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA XÜSUSİ MƏQSƏDLİ HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | 185,217,337 | 104,369,826 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin axınları ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Faiz gəliri | | (1,361,374) | - |
| Köhnəlmə xərci | 16 | 91,141 | - |
| Faiz xərcləri | | 825,038 | 745,403 |
| **Dövriyyə kapitalı üzrə dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **184,772,142** | **105,115,229** |
| Dövriyyə kapitalına düzəlişlər: | | | |
| Debitor borcları üzrə dəyişiklik | | (38,214,808) | (37,846,456) |
| Təchizatçılara ödənilmiş avans ödənişləri üzrə dəyişiklik | | (34,309,429) | (438,153) |
| Mal-material ehtiyatları üzrə dəyişiklik | | (3,183,317) | (182,226,113) |
| Digər cari aktivlər üzrə dəyişiklik | | (24,296,918) | (45,912,576) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər üzrə dəyişiklik | | 163,740,647 | 160,266,101 |
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitləri** | | **248,508,317** | **(1,041,968)** |
| Ödənilmiş mənfəət vergisi | | (40,916,621) | - |
| **Əməliyyat fəaliyyətindən daxil olan/(yönələn) xalis pul vəsaitlərinin axını** | | **207,591,696** | **(1,041,968)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Əmlak və avadanlığın satın alınması | 16 | (437,530) | - |
| Cari hesablar üzrə alınmış faizlər | | 1,361,374 | - |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **923,844** | **-** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN AXINI:** | | | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 18 | - | 93,500,000 |
| Borc alınmış vəsaitlərin ödənilməsi | 18 | (93,500,000) | - |
| Borc alınmış vəsaitlər üzrə ödənilmiş faizlər | 18 | (1,009,441) | (561,000) |
| **Maliyyə fəaliyyətinə (yönələn)/daxil olan xalis pul vəsaitləri** | | **(94,509,441)** | **92,939,000** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA | | 114,006,099 | 91,897,032 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 11 | **91,897,090** | **58** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 11 | **205,903,189** | **91,897,090** |

**Rəhbərliyin adından:**

**Güləddin Dadaşov**
**Sədr müavini**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Şahnisə Nuriyeva**
**Maliyyə şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən**

22 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası "AZƏRKONTRAKT" Səhmdar Cəmiyyəti

9-41-ci səhifələrdə təqdim edilmiş qeydlər xüsusi məqsədli maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. ÜMUMİ MƏLUMAT

### Cəmiyyət və onun əsas fəaliyyəti

Azərbaycan Respublikası Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 1996-cı il tarixli 519 nömrəli Fərmanı ilə səhmləri 100% dövlətə məxsus olmaqla, keçmiş Material Ehtiyatları Nazirliyi və Ticarət Nazirliyinin əsasında yaradılmışdır.

1 yanvar 2021-ci il tarixinədək Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardan ibarət olmuşdur:

- Azərbaycan Respublikasının dövlət ehtiyaclarının, strateji əhəmiyyətli istehsal və tikinti proqramlarının maddi-texniki təminatı, bu sahədə dövlətlərarası iqtisadi əlaqələrin təşkili;
- Məhsulların alınması və satılması üzrə birbaşa münasibətlərin inkişafında mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatlara köməklik edilməsi;
- Azərbaycan Respublikasının daxili istehlak bazarının istehsal-texniki təyinatlı məhsulları və əsas xalq istehlakı mallarına olan tələbatının öyrənilməsi və mərkəzi icra hakimiyyəti orqanlarına tövsiyələrin verilməsi;
- Xammal və materiallarla təmin etməklə sənayenin inkişafı və istehsalın səmərəliliyinin yüksəldilməsinə kömək edilməsi, bu məqsədlə həmçinin xarici investisiyaların, bank kreditlərinin və digər maliyyə ehtiyatlarının cəlb edilməsi;
- Mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatlara, habelə əhaliyə marketinq, nəqliyyat, kirayə, lizinq, informasiya və digər xidmətlərin göstərilməsi.

1 yanvar 2021-ci il tarixindən etibarən daxili bazarda təbii qazın təchizatçılardan satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2020-ci il tarixli 513 nömrəli Qərarı ilə Cəmiyyətə həvalə edilmişdir.

Təbii qazın alış qiyməti təchizatçılarla bağlanmış müqavilələr ("Azneft" İB-dən alınan təbii qazın alış qiyməti Azərbaycan Respublikası Dövlət Tarif (qiymət) Şurasının müəyyən etdiyi tariflər əsasında müəyyən edilir) əsasında, daşınma xərcləri və satış qiymətləri isə Azərbaycan Respublikası Dövlət Tarif (qiymət) Şurasının müəyyən etdiyi tariflər əsasında müəyyən edilir.

Təbii qazın alınması üçün tədarükçülərin siyahısı aşağıdakılardan ibarətdir:

- "Azneft" İstehsalat Birliyi
- "Azerbaijan Gas Supply Company" Limited
- "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasında Nümayəndəliyi
- "Bahar Energy Operating Company Limited" Şirkətinin Azərbaycan Respublikasında Nümayəndəliyi
- Britaniyanın Qərbi Hindistanının "Gobustan Operating Company LTD" Şirkətinin Nümayəndəliyi

Təbii qazın satışı üzrə alıcıların siyahısı aşağıdakılardan ibarətdir:

- "Azərenerji" ASC
- "Azəriqaz" İstehsalat Birliyi
- Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ("SOCAR") "Qaz İxrac" İdarəsi tərəfindən Cəmiyyətə təhvil verilməli olan qaz həcminin 318,244 $m^3$ olan hissəsi və ya ƏDV nəzərə alınmadan 32,423 AZN (2021-ci il üzrə316,379 $m^3$ və ya ƏDV nəzərə alınmadan 22,881 AZN) həmin idarənin daxili tələbatları üçün istifadə edilmiş və dəyəri Cəmiyyətə ödənilməmişdir.

Cəmiyyətin son nəzarətedici tərəfiAzərbaycan Respublikasının Nazirlər Kabinetidir. .

**Cəmiyyətin hüquqi ünvanı**

Cəmiyyətin hüquqi ünvanı AZ1141, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 82/83 ünvanında yerləşir.

## 2. CƏMİYYƏTİN FƏALİYYƏT MÜHİTİ

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. "Brent" markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır. COVİD-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci ildə və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdır. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2022-ci ildə 2021-ci illə müqayisədə 4.6% artaraq 133.8 milyard AZN-ə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ

### Giriş

Cəmiyyətin maliyyə ili dekabr ayının sonuncu günündə başa çatır. Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatları "Konsolidasiya olunmuş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS-nin (konsolidasiya olunmuş maliyyə hesabatları xüsusi məqsədli maliyyə hesabatları çərçivəsində tələb olunmur) tətbiqi və açıqlama tələbləri və müvafiq maliyyə hesabatı elementlərinin - törəmə müəssisələrə investisiya və digər kapitalın qiymətləndirilməsi və açıqlanması, digər kapital və müqayisəli məlumatların açıqlanması istisna olmaqla, MHBS-yə uyğunlaşdırılmış maliyyə hesabatları əsasında hazırlanmışdır. Törəmə müəssisələrə investisiyalar xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsində digər kapital vasitəsilə xüsusi məqsədli maliyyə hesabatlarından çıxarılır.

### Fasiləsizlik prinsipi

Hazırkı xüsusi məqsədli maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi, müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

Əsas mühasibat siyasətləri aşağıdakı kimidir:

### Cari və uzunmüddətli təsnifləşdirmələr

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında xüsusi məqsədli maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktivlər və öhdəliklər kimi təsnif edilir.

**Müştərilərlə bağlanmış müqavilələr üzrə gəlirlər**

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-nin əsas prinsipinə görə, Cəmiyyət vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Cəmiyyətin həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart, xüsusilə gəlirlərin tanınması üçün 5 addımlı bir yanaşma təqdim edir:

- 1-ci addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələri müəyyən etmək;
- 2-ci addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-yə əsasən, öhdəliyin icrası yerinə yetirilirsə və ya yerinə yetirildikdə, yəni müəyyən öhdəliyin icrası əsas götürülən mallara və ya xidmətlərə "nəzarət" müştəriyə ötürülərkən, müəssisə gəliri tanıyır.

Cəmiyyətin bütün gəlirləri, əsasən, Azərbaycan Respublikası Dövlət Tarif Şurasının (qiymət) tarifləri vasitəsilə təsdiq etdiyi dərəcələrdən əldə edilir. Tarif dərəcələri əməliyyat qiymətlərini əks etdirir.
Bu tarifə əsaslanan satışlar çərçivəsində yaradılan icra öhdəliklərinə əmtəə (müştərilərə satılan təbii qazın dəyəri) və çatdırılma (təbii qazın paylama sistemi vasitəsilə müştərilərə nəqli) daxildir. Təbii qazın müştərilərə çatdırılması zamanla Cəmiyyətin müvafiq icra öhdəliklərinin yerinə yetirilməsi ilə nəticələnir. Bütün müştərilərdən hesablanmış istifadə ilə ölçülən istehlaklar əsasında aylıq ödəniş edilir. Gəlir, təbii qazın nəql edilməsi və təhvil verilməsi zamanı tanınır.

**Digər gəlir və xərclər**

Digər gəlir və xərclər hesablama metodu ilə tanınır.

**İşçi heyəti ilə bağlı xərclər**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun maliyyə vəziyyəti haqqında hesabatında tanınır. Maliyyə aktivləri və öhdəlikləri, olaraq, ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) ilkin tanınma zamanı müvafiq olaraq maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə əlavə edilir və ya ondan çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq həm pul vəsaitləri axınının yığılması, həm də maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılandıqda Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin, digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgü üsuludur. Satın alınan və ya yaranan kredit zərərinə məruz qalmış maliyyə aktivlərindən (yəni tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, ehtimal olunan gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri, tanınmada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə, həmin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə və məcmu amortizasiya əlavə olunmaqla maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri, daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Sonradan kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit zərərinə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə öhdəliklərinin əksəriyyəti, daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliyinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi kreditor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Kreditor borcları və alınacaq digər vəsaitlər üçün əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçülür (sadələşdirilmiş yanaşma).

Cəmiyyət ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-yə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və xüsusi məqsədli maliyyə hesabatlarında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – Fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – Ədalətli dəyər ölçümü üçün əhəmiyyətli olan ən aşağı səviyyəli girişin birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – Ədalətli dəyər ölçümü üçün əhəmiyyətli olan ən aşağı səviyyəli girişin müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Xüsusi məqsədli maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital alətləri olaraq təsnifat*

Borc və kapital alətləri müqavilə üzrə razılaşmaların mahiyyəti və maliyyə öhdəliyinin və səmərəli alətin anlayışlarına uyğun olaraq maliyyə öhdəlikləri və ya kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti bütün öhdəliklər çıxılmaqla, müəssisənin aktivləri üzrə qalıq məbləği faizlərini təsdiq edən razılaşmadır. Cəmiyyətin kapital alətləri birbaşa xərclər çıxılmaqla, daxilolmalar üzrə tanınır.

Cəmiyyətin öz kapital alətlərinin geri alması birbaşa kapitalda tanınır və çıxılır. Cəmiyyətin öz kapital alətlərini alması, satması, buraxması və ya ləğvetməsi üzrə mənfəət və ya zərərdə heç bir mənfəət və zərər tanınmır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliyi (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutlduğu halda maliyyə öhdəlikləri MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

Kreditor borcları qarşı tərəf müqavilə üzrə öhdəliklərini yerinə yetirdikdə hesablanır və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini maliyyə vəziyyəti haqqında hesabatından (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə aktivləri və öhdəliklərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüquq olduqda və ya eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Tanınma haqqını itirməyən maliyyə aktivinin qarşı tərəfə köçürülməsinin uçotunu aparan zaman Cəmiyyət köçürülmüş aktivi və əlaqədar öhdəliyi əvəzləşdirmir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassadakı nağd pullar, banklarda danışıqlar zamanı saxlanılan depozitlər və ilkin ödəmə müddəti üç ay və ya daha az olan digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir, bu investisiyalar məlum bir miqdarda nağd pula çevrilir və əhəmiyyətsiz dəyişikliklər riski ilə, lakin məhdudlaşdırılmış pulu istisna edir.

Məhdudlaşdırılan qalıqlar pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılır. Məhdudlaşdırılmış pul vəsaitləri Cəmiyyət tərəfindən istifadə oluna bilməz və buna görə də yüksək likvid hesab edilmir, məsələn, reabilitasiya öhdəliklərini ödəmək üçün ayrılan pul vəsaitləri. Hesabat tarixindən sonra ən azı on iki ay ərzində dəyişdirilməsi və ya öhdəliyin ödənilməsi üçün istifadə edilməsi məhdudlaşdırılan qalıqlar digər uzunmüddətli aktivlərə daxil edilir.

**Debitor borcları**

Debitor borcları effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafi, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər formaları ilə əhatəsi) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəcələrindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır.

Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Təchizatçılara ödənilmiş avans ödənişləri**

Təchizatçılara ödənilmiş avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Təchizatçılara ödənilmiş avans ödənişləri uzunmüddətli kimi o zaman təsnifləşdirilir ki, avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilir və ya avans ödənişi ilkin tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddir.

Cəmiyyətin aktiv üzərində nəzarət əldə etdiyi və bu aktivlə əlaqədar gələcəkdə iqtisadi mənfəətlərin Cəmiyyətə axını ehtimal edildiyi hallarda aktivin əldə edilməsi üçün təchizatçılara ödənilmiş avans ödənişləri aktivin balans dəyərinə ötürülür. Digər təchizatçılara ödənilmiş avans ödənişləri mallar və ya xidmətlər alındıqdan sonra mənfəət və zərər hesablarında əks etdirilir. Təchizatçılara ödənilmiş avans ödənişlərinə aid olan aktivlərin, malların və ya xidmətlərin alınmaması üzrə müəyyən göstəricilər yarandıqda təchizatçılara ödənilmiş avans ödənişinin balans dəyəri müvafiq olaraq silinir və dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında tanınır.

**Mal-material ehtiyatları**

Anbarda olan təbii qaz orta maya dəyəri ilə qeydə alınır. Təbii qaz anbarlarına vurulan qazın qiyməti vurulma zamanı alış qiyməti ilə, anbardan götürülməsi isə həmin hesabat ayının orta alış qiyməti ilə müəyyən edilir.

İlin sonunda anbarda olan təbii qaz, maya dəyərindən və xalis satış dəyərindən aşağı olanı ilə əks etdirilir. Mal-material ehtiyatları maya dəyəri, onların təyinatı üzrə istifadəyə və ya satışa hazır olduqdan sonra yaranmış daşınma xərcləri və itirilmiş birbaşa alış xərclərini əhatə edir. Xalis realizə edilə bilən dəyər tamamlamanın təxmin edilən dəyəri və satış xərcləri çıxılmaqla adi iş prosesində təxmin edilən satış qiymətidir.

İtirilmiş, eləcə də uçota alınmamış qaz paylayıcı sistemdə ölçülən qazla kommunal sistemdən kənarda ölçülən və ya başqa şəkildə uçota alınan qaz arasındakı fərqdir. Bu fərqlər təzyiq və temperaturun dəyişməsinin həcmdə böyük dəyişikliklərə səbəb olması ilə bağlıdır. İtirilmiş və hesabı bilinməyən qaz mütləq havaya sızan qaz deyil.

***ƏDV depozit hesabı***

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci ildən etibarən tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş elektron qaimə fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV-nin depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və hər hansı uçota alınmamış dəyərsizləşmə zərəri çıxılmaqla tarixi dəyərlə uçota alınır.

Amortizasiya metodu hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və ehtimal olunan dəyişikliklərin təsiri ilə birlikdə azalan qalıq metodu əsasında müəyyən edilmiş aşağıdakı illik dərəcələrlə nəzərə alınır:

| | |
|---|---|
| Mebel və avadanlıqlar | 20% |
| Kompüter və avadanlıqlar | 20-25% |

Amortizasiya azalan qalıq metodu əsasında hesablanır.

Təmir və yenilənmə ilə əlaqədar xərclər kapitallaşma şərtinə uyğun olmadıqda yaranan zaman uçota alınır və əməliyyat xərclərinə daxil edilir.

Cəmiyyət hər bir hesabat tarixinin sonunda aktivlərin dəyərsizləşmə zərərinə məruz qalmasına dair hər hansı ehtimalın olub-olmadığını müəyyən etmək üçün əmlak və avadanlıqların balans dəyərlərini nəzərdən keçirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, Cəmiyyət dəyərsizləşmə zərərinin (əgər varsa) dərəcəsini müəyyən etmək üçün aktivin əvəz olunma dəyərini təxmin edir. Fərdi aktivin əvəz olunma dəyərini təxmin etmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu pul vəsaiti yaradan vahidin əvəz olunma dəyərini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) əvəz olunma dəyəri onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun əvəz olunma dəyərinə qədər azaldılmalıdır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa, aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərər hesabatlarında tanınır.

Dəyərsizləşmə zərəri sonradan reversiya (ləğv) olunduqda, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən dəyərinin yenidən işlənmiş təxmininə qədər artırılır, lakin artırılmış balans dəyəri (və ya nağd pul yaradan vahidin) əvvəlki illərdə həmin aktiv (və ya nağd pul yaradan vahid) üçün heç bir dəyərsizləşmə zərəri tanınmış olmadığı müəyyən edilmiş balans dəyərindən yuxarı olmamalıdır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınmazsa, dəyərsizləşmə zərərinin ləğvi dərhal mənfəət və zərər hesablarında tanınır və bu halda dəyərsizləşmə zərərinin ləğvi yenidən qiymətləndirmə artımı kimi nəzərə alınır.

Əmlak və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdikdə hesablanır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır.

**Vergiqoyma**

***Mənfəət vergiləri***

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Mənfəət və zərər və digər məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə xüsusi məqsədli maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir.

Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin qudvildən və ya mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (müəssisələrin birləşməsi istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə maliyyə vəziyyəti haqqında hesabatda təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

***Əmlak vergisi***

Əmlakın qalıq dəyərini aşan dəyərində sığortalanması və əmlak vergisinin bazar dəyəri ilə hesablanması halları istisna olmaqla, daimi nümayəndəliyi olan rezident hüquqi şəxslər və qeyri-rezident hüquqi şəxslər üçün vergi tutulan baza onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Bununla belə hüquqi şəxslərin mülkiyyətində olan əsas vəsaitlərin orta illik qalıq dəyəri 1% nisbətində əmlak vergisinə cəlb olunur. Eyni zamanda, rezident və qeyri-rezident fiziki şəxslərə münasibətdə vergi tutulan baza, əmlak vergisinin dərəcəsinin sahib olduğu aktivin növünə görə dəyişdiyi tikililər və onların hissələri, habelə rezident fiziki şəxslərin su və hava nəqliyyatı vasitələrindən ibarətdir.

Hesabat dövrü təqvim ilinə bərabərdir. Əsas vəsaitlərə sahib olan hüquqi şəxslər, vergi bəyannaməsini hesabat dövründən növbəti ilin 31 mart tarixindən gec olmayaraq təqdim etməlidirlər. Əmlak vergisi ödəyicisi hüquqi şəxslər vergiləri hər rübün ikinci ayının 15-nə qədər avans ödənişləri yolu ilə (keçən il əmlak vergisinin 20%-i) yuxarıda qeyd olunan sənəd tarixindən gec olmayaraq son balanslaşdırma ödənişi ilə ödəyirlər.

Azərbaycan Respublikasında, həmçinin Cəmiyyətin fəaliyyətinə görə hesablanan müxtəlif vergilər mövcuddur. Bu vergilər məcmu gəlir haqqında hesabata daxil edilir.

*Əlavə dəyər vergisi*

Ödəniləcək ƏDV və iddia olunan alınacaq ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi, vergi orqanlarına aşağıda qeyd edilmiş tarixlərdən daha tez olanında ödənilir: (a) müştərilərdən alınacaq vəsaitlərin ödənildiyi zaman və ya (b) mal və ya xidmətlərin müştərilərə təqdim edilməsi zamanı. Alınacaq ƏDV bir qayda olaraq, ƏDV elektron qaimə fakturası alındıqdan sonra, ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti haqqında hesabatda ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**Müştərilərdən alınmış avanslar**

Müştərilərdən alınmış avanslar ilkin olaraq öhdəlik kimi qeydə alınacaq kateqoriyaya aiddir. Müştərilərdən alınmış avanslar ilkin olaraq əldə olunmuş kompensasiyanın ədalətli dəyəri əlavə olmaqla hər hansı birbaşa aid edilə bilən əməliyyat xərcləri ilə qeydə alınır və sonradan amortizasiya olunmuş maya dəyərində uçota alınır.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV elektron qaimə fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV-nin depozit hesabında olan sub-uçot hesabına ödəyir. Eyni zamanda dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və Dövlət Gömrük Komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV-nin depozit hesabı vasitəsilə ödənilə bilər.

Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına ("BDX") və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına ("ARMB") ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Dövlət Vergi Xidməti təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi hesab vərəqəsinə daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Repub1ikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər.

Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV-nin depozit hesabında olan sub-uçot hesabına və Dövlət Gömrük Komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə ƏDV-nin depozit hesabı ilə aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

Azərbaycan Respublikasında Cəmiyyətin fəaliyyətinə görə hesablanan digər vergilər də mövcuddur. Bu vergilər mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilmişdir.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir.

Əməliyyatların həlli, monetar aktiv və öhdəliklərin mübadiləsi nəticəsində xarici valyuta gəlirləri və zərərləri, hər bir müəssisənin funksional valyutasına görə ARMB-nin rəsmi məzənnələri üzrə funksional valyuta məzənnəsinə dair mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Xüsusi məqsədli maliyyə hesabatının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən il sonuna olan valyuta məzənnələrindən istifadə etmişdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| AZN/ABŞ dolları | 1.7000 | 1.7000 |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər xüsusi məqsədli maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək maliyyə hesabatlarının qeydlərində açıqlanır. Şərti aktivlər xüsusi məqsədli maliyyə hesabatlarında qeyd olunmur, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatlarında açıqlanır.

**Yenidən təsnifatlar**

Cari ilin təqdimatı qeydlərin təsvirini daha yaxşı təmin etdiyinə görə, 31 dekabr 2022-ci il tarixinə olan təqdimata uyğunlaşmaq üçün 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlərə müəyyən yenidən təsnifatlar edilmişdir.

## 4. UÇOT SİYASƏTLƏRİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsaslı xüsusi məqsədli maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində xüsusi məqsədli maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar xüsusi məqsədli maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdiyi zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər mal-material ehtiyatlarının xalis realizə edilə bilən dəyərinə, təbii qaz ehtiyatları üzrə itkilərə, ƏDV-nin bərpasına, təbii qazın nəqli xidmətlərinə görə debitor borclarının bərpasına, maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsinə və cari vergiyə aiddir. Faktiki nəticələr bu təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik MHBS əsaslı xüsusi məqsədli maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

**Mal-material ehtiyatlarının xalis realizə edilə bilən dəyəri**

Mal-material ehtiyatlarının xalis realizə edilə bilən dəyəri üzrə ehtiyatlar Cəmiyyət tərəfindən ehtiyatların qiymətləndirilməsi əsasında hesablanır. Mal-material ehtiyatları zədələndikdə, satış qiyməti aşağı düşdükdə onların uçota alınması zəruri olur. Mal-material ehtiyatlarının silinməsi Cəmiyyətin rəhbərliyi tərəfindən ilin sonunda ehtiyatların köhnəlməsi və yararlılığının qiymətləndirilməsi əsasında baş verir.

**Təbii qaz ehtiyatları üzrə itkilər**

Cəmiyyət təbii qaz ehtiyatlarının itkilərini qiymətləndirir. Cəmiyyət tərəfindən qiymətləndirilən iki növ itki var. Bunlara təbii qazın nəqli zamanı yaranan itkilər və texnoloji sərfiyyat üzrə itkilər daxildir.

- Yeraltı qaz anbarılarında yaranan itkilər qaz həcmlərinin yeraltı qaz anbarlarına vurulması, orada saxlanılması və oradan götürülməsi zamanı baş verir.
- Nəql və texnoloji sərfiyyat üzrə itkilər təbii qazın nəqli prosesində yaranır.

Hər iki növ itki təbii qazın satışa hazır vəziyyətə gətirilməsindən sonra baş verdiyi üçün təbii qazın maya dəyərinə daxil edilmir.

Cəmiyyətin təbii qaz ehtiyatlarının itkilərini qiymətləndirmək üçün Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasına müraciətinə cavab olaraq nəql tariflərində texnoloji sərf və itki xərcləri, həmçinin Yeraltı Qaz Anbarlarının (YQA) texnoloji itki, mənimsəmə qazı, geoloji qaz itkiləri kimi xərclərinin də saxlanc tarifinə aid edildiyi göstərilmişdir. Rəhbərlik hesab edir ki, gələcək dövrlərdə müvafiq tərəflərlə razılaşma əldə edildikdən sonra yuxarıda qeyd edilən itkilər saxlanc tarifinə aid ediləcəkdir.

**ƏDV-nin bərpası**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət daxili maliyyə şöbəsinin proqnozlaşdırılan ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmalar və tarixi bərpa təcrübəsi ilə bağlı məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

**Təbii qazın nəqli xidmətlərinə görə alınacaq vəsaitlərin ödənilməsi**

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin "Azəriqaz" İstehsalat Birliyindən təbii qazın nəqlinə görə ödəniləcək 71,268,862 AZN (31 dekabr 2021-ci il üzrə 30,235,182 AZN) məbləğində debitor borcu olmuşdur. Rəhbərlik hesab edir ki, bu məbləğ bərpa oluna bilərdir və qısamüddətli dövr ərzində alınacaqdır və ya eyni məbləğin SOCAR-ın "Qaz İxrac" İdarəsinə ödəniləcək borcla qarşılıqlı hesablaşması üçün SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi və SOCAR-ın "Qaz İxrac" İdarəsi ilə üçtərəfli qaydada razılaşdırılacaqdır.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarından istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci düzəlişdə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün daxilolmalar (müşahidə olunmayan daxilolmalar).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

**Cari vergilər**

Azərbaycanın vergi qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişikliklərə məruz qalır. Bundan başqa, Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yoxlaya bilər və Cəmiyyət əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilər. Vergi orqanları tərəfindən vergi öhdəlikləri ilə əlaqədar nəzərdən keçirilmə ilindən əvvəlki üç təqvim ili ərzində yoxlanılması üçün müddətlər açıq olaraq qalır. Müəyyən şərtlərdə araşdırmalar daha uzun müddətləri əhatə edə bilər.

## 5. YENİ VƏ YA YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş –** 2020-ci ilin may ayında BMUSŞ tərəfindən "Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş "Maliyyə Hesabatlılığının Konseptual Əsasları"na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial "2 gün" mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-nin tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-nin mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-ə edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-ə edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-ə müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS – ilkin tətbiq edən törəmə olaraq.** BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS – Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Kənd Təsərrüfatı" adlı 41 saylı BMUS** – Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ "Kənd Təsərrüfatı Standartı" adlı 41 saylı BMUS-ə dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-in 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı xüsusi məqsədli maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi -** 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-ə edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixinə ehtiyac yoxdur.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-ə edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-ə düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-ə edilən Düzəlişlər** - 2021-ci ilin may ayında Şura 12 saylı MUBS-ə uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı MUBS-ə düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **"Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər" (1 saylı BMUS-ə edilən Düzəlişlər)** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**"Konsolidasiya olunmuş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-ə edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya olunmuş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya olunmuş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin xüsusi məqsədli maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 7. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflər "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-də müəyyən edilmişdir. Ümumiyyətlə, bir tərəfin digər tərəfi idarə etmək qabiliyyəti varsa, bir tərəf digər tərəfin ümumi nəzarəti altındadırsa və ya maliyyə və əməliyyat qərarları verərkən bir tərəf digər tərəfə əhəmiyyətli təsir göstərə və ya birgə nəzarət edə bilirsə, tərəflər əlaqəli hesab olunurlar. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir.

Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-nin 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-in 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə üzərində nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan dövlət; və
(b) eyni dövlətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın üzərində nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə əsas rəhbər işçilərə hesablanan ümumi kompensasiyalar 156,617 AZN (2021-ci il: 8,373 AZN) təşkil etmişdir.

## 8. GƏLİRLƏR

Cəmiyyətin şirkətlər üzrə gəlirləri aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| "Azərenerji" ASC-dən əldə olunan gəlir | 804,929,297 | 587,907,121 |
| "Azəriqaz" İstehsalat Birliyindən əldə olunan gəlir | 776,101,014 | 590,046,703 |
| SOCAR-dan ("Gazprom Schweiz" AG Şirkətinə mübadilə olunmuş qaza görə) əldə olunan gəlir | 65,067,767 | - |
| Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətindən əldə olunan gəlir | 28,548,400 | 22,089,732 |
| Digər şirkətlərdən əldə olunan gəlir | 68,506 | - |
| **Cəmi gəlirlər** | **1,674,714,984** | **1,200,043,556** |

Təbii qazın topdansatış qiymətləri Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir. 2021-ci il ərzində Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən iki dəfə qiymətlər dəyişdirilmişdir. Təbii qazın topdansatış qiyməti hər min kub metrə görə 1 yanvar 2021-ci il tarixindən 30 iyun 2021-ci il tarixinədək "Azəriqaz" İB və Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti üçün 75 AZN, "Azərenerji" ASC üçün 120 AZN, 1 iyul 2021-ci il tarixindən 31 oktyabr 2021-ci il tarixinədək "Azəriqaz" İB və Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti üçün 110 AZN, "Azərenerji" ASC üçün 130 AZN, 1 noyabr 2021-ci il tarixindən "Azəriqaz" İB və "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti" üçün 118 AZN, "Azərenerji" ASC üçün 165 AZN olmuşdur.

Rusiya Federasiyasının "Gazprom Schweiz" AG Şirkəti ilə Cəmiyyət arasında imzalanmış 23 iyul 2021-ci il tarixli AZ-CH-2021 nömrəli təbii qaz mübadiləsi üzrə müqaviləyə əsasən, 31 dekabr 2021-ci il tarixinə 326,532,396 $m^3$ (30,483,635 AZN) həcmində təbii qaz Rusiya Federasiyasına mübadilə edilmişdir. 31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində 101,384,412 $m^3$ həcmində təbii qaz Cəmiyyətə geri qaytarılmış, 225,147,984 $m^3$ həcmində və 65,067,767 AZN məbləğində təbii qaz isə SOCAR tərəfindən satın alınmışdır.

## 9. DİGƏR GƏLİRLƏR/XƏRCLƏR, XALİS

Digər gəlirlər/xərclər, xalisə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Bank xərcləri | 756,326 | 286,691 |
| "YAŞAT" Fonduna ianə ödənişi | 200,000 | - |
| Peşəkar ödənişlər | 188,784 | 13,335 |
| Əmlak və avadanlıqların köhnəlməsi | 91,141 | - |
| Ekspertiza xərcləri | 41,192 | 36,770 |
| Gömrük ödənişi | 16,825 | 45,355 |
| Digər gəlirlər və xərclər, xalis | 83,461 | (11,761) |
| **Cəmi digər gəlirlər/xərclər, xalis** | **1,377,729** | **370,390** |

## 10. MƏNFƏƏT VERGİLƏRİ

Cəmiyyət ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dən fərqli ola bilər.

Cəmiyyət bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlərin vergi məqsədləri üçün vergidən azad olması nəticəsində daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir.

31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar/zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi-uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə vergi xərcləri və mühasibat uçotu mənfəətinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Debitor borcları | 76,727 | 76,727 |
| Borc alınmış vəsaitlər | - | 184,403 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **76,727** | **261,130** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər** | | |
| Mal-material ehtiyatları | - | (15,338) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **-** | **(15,338)** |
| Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər | 76,727 | 245,792 |
| **20% ilə təxirə salınmış vergi aktivi** | **15,345** | **49,158** |

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | **185,217,337** | **104,369,826** |
| Qanuni vergi dərəcələri | 20% | 20% |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi ilə nəzəri vergi | (37,043,467) | (20,873,965) |
| Daimi fərqlərin vergi təsiri | (70,201) | - |
| **Mənfəət vergisi xərci** | **(37,113,668)** | **(20,873,965)** |
| Cari mənfəət vergisi xərcləri | (37,079,855) | (20,885,748) |
| Təxirə salınmış vergi aktivində dəyişiklik | (33,813) | 11,783 |
| **Mənfəət vergisi xərci** | **(37,113,668)** | **(20,873,965)** |

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Təxirə salınmış vergi aktivi** | | |
| **İlin əvvəli** | **49,158** | **37,375** |
| Mənfəət və zərər hesablarında (tutulmuş)/hesablanmış il üzrə təxirə salınmış vergi aktivində dəyişiklik | (33,813) | 11,783 |
| **İlin sonu** | **15,345** | **49,158** |

## 11. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentlərinə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Bank hesablarında nağd pul vəsaitləri | 205,903,189 | 91,897,090 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **205,903,189** | **91,897,090** |

31 dekabr 2022-ci il tarixində bütün bank hesabları "Kapital Bank" ASC və "Azərbaycan Beynəlxalq Bankı" ASC-də saxlanılır, 31 dekabr 2021-ci il tarixinə isə bütün bank hesabları yalnız "Kapital Bank" ASC-də saxlanılmışdır.

31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsinə heç bir məhdudiyyət qoyulmamışdır.

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

3 mart 2022-ci il tarixində "Azərbaycan Beynəlxalq Bankı" ASC ilə Cəmiyyət arasında imzalanmış müqaviləyə əsasən, bank hesabındakı qalıq 20,000,000 AZN-dən artıq olduqda, 1,1%-dək faiz qalıq üzrə hesablanır.

## 12. DEBİTOR BORCLARI

Debitor borclarına aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Alıcılardan alınacaq debitor borcları | 4,800,320 | 7,619,192 |
| Təbii qazın nəqli xidmətlərindən əldə olunmuş debitor borcları | 71,268,862 | 30,235,182 |
| **Cəmi debitor borcları** | **76,069,182** | **37,854,374** |

Cəmiyyətin debitor borclarının coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 13. TƏCHİZATÇILARA ÖDƏNİLMİŞ AVANS ÖDƏNİŞLƏRİ

Təchizatçılara ödənilmiş avans ödənişlərinə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təbii qazın satın alınması üçün təchizatçılara ödənilmiş avans ödənişləri | 34,747,582 | 438,153 |
| **Cəmi təchizatçılara ödənilmiş avans ödənişləri** | **34,747,582** | **438,153** |

## 14. MAL-MATERİAL EHTİYATLARI

Mal-material ehtiyatlarına aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Yeraltı qaz anbarında saxlanılan təbii qaz ehtiyatları | 184,759,280 | 151,060,535 |
| Xarici ölkələrdə təbii qaz ehtiyatları | 650,150 | 31,165,578 |
| **Cəmi mal-material ehtiyatları** | **185,409,430** | **182,226,113** |

1 aprel 2021-ci il tarixindən etibarən Cəmiyyət istehlakçıları fasiləsiz təbii qazla təmin etmək üçün yeraltı qaz anbarlarından istifadə edir. 31 dekabr 2022-ci il tarixinə yeraltı qaz anbarlarında Cəmiyyətə məxsus təbii qaz ehtiyatlarının həcmi 2,030,851,575 $m^3$ (31 dekabr 2021-ci il üzrə 1,702,957,644 $m^3$) olmuşdur.

Cəmiyyətin xarici ölkədə İran İslam Respublikasında 650,150 AZN məbləğində təbii qaz (qalıq qaz) ehtiyatları mövcuddur (31 dekabr 2021-ci il: Rusiya Federasiyası və İran İslam Respublikasında, müvafiq olaraq, 30,483,635 AZN və 681,943 AZN məbləğlərində).

Rusiya Federasiyasının "Gazprom Schweiz" AG Şirkəti ilə Cəmiyyət arasında imzalanmış 23 iyul 2021-ci il tarixli AZ-CH-2021 nömrəli təbii qaz mübadiləsi üzrə müqaviləyə əsasən, 31 dekabr 2021-ci il tarixinə Rusiya Federasiyası ərazisində 326,532,396 $m^3$ (30,483,635 AZN) həcmində təbii qaz Rusiya Federasiyasına mübadilə edilmişdir. 101,384,412 $m^3$ həcmində təbii qaz geri qaytarılmış və Hüququn (tələbin) güzəşt edilməsinə dair Cəmiyyət və SOCAR arasında bağlanmış 23 dekabr 2022-ci il tarixli Müqaviləyə əsasən 225,147,984 $m^3$ həcmində və ya 65,067,767 AZN məbləğində təbii qazın dəyəri Cəmiyyətə ödənilmişdir.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasını təbii qazla təmin etmək məqsədi ilə 2004-cü il 5 avqust tarixində İran İslam Respublikasının İran Milli Qaz İxracı Şirkəti (NIGEC) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İB arasında bağlanmış təbii qazın SVOP müqaviləsi çərçivəsində İran İslam Respublikasının ərazisində 31 dekabr 2022-ci il tarixinə 8,412,720 $m^3$ (dekabr, 2021-ci il: 9,010,479 $m^3$) həcmində təbii qaz qalığı mövcuddur.

## 15. DİGƏR CARİ AKTİVLƏR

Digər cari aktivlərə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| ƏDV depozit hesabı | 41,247,927 | 37,074,987 |
| Alınacaq ƏDV | 28,961,567 | 8,837,589 |
| **Cəmi digər cari aktivlər** | **70,209,494** | **45,912,576** |

## 16. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlara aşağıdakılar daxildir:

| | Mebel və avadanlıqlar | Kompüter və əlaqəli avadanlıqları | Davam edən tikililər | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| **1 yanvar 2022-ci il** | - | - | - | - |
| Əlavələr | 249,830 | 176,154 | 11,546 | 437,530 |
| **31 dekabr 2022-ci il** | **249,830** | **176,154** | **11,546** | **437,530** |
| **Yığılmış amortizasiya** | | | | |
| **1 yanvar 2022-ci il** | - | - | - | - |
| İl üzrə amortizasiya xərci | (49,966) | (41,175) | - | (91,141) |
| **31 dekabr 2022-ci il** | **(49,966)** | **(41,175)** | **-** | **(91,141)** |
| **Xalis qalıq dəyəri** | | | | |
| **31 dekabr 2022-ci il** | **199,864** | **134,979** | **11,546** | **346,389** |
| **31 dekabr 2021-ci il** | **-** | **-** | **-** | **-** |

31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə əmlak və avadanlıqlara daxil edilmiş nə mülkiyyət hüququna məhdudiyyətlər qoyulmuş aktivlər, nə də öhdəliklərin təminatı kimi girov qoyulmuş hər hansı aktiv mövcud olmamışdur.

## 17. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

Kreditor borcları və digər ödəniləcək vəsaitlərə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Kreditor borcları | 266,654,935 | 130,388,845 |
| **Cəmi maliyyə üzrə kreditor borcları** | **266,654,935** | **130,388,845** |
| Vergi öhdəlikləri | 60,150,656 | 43,249,589 |
| Alıcılardan alınmış avanslar | 3,151,753 | 2,094,891 |
| Gələcək dövrün ƏDV öhdəliyi | 11,134,702 | 5,454,840 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **341,092,046** | **181,188,165** |

Cəmiyyətin kreditor borcları və digər ödəniləcək vəsaitlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 18. BORC ALINMIŞ VƏSAİTLƏR

Borc alınmış vəsaitlərə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | - | 40,880,467 |
| "Kapital Bank" ASC | - | 40,880,467 |
| "Azər-Türk Bank" ASC | - | 11,923,469 |
| **Cəmi borc alınmış vəsaitlər** | **-** | **93,684,403** |

Cəmiyyət 21 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin zəmanəti ilə "Kapital Bank" ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC və "Azər-Türk Bank" ASC ilə 55,000,000 ABŞ dolları məbləğində illik 1% faiz dərəcəsi ilə ödəmə müddəti 21 oktyabr 2022-ci il tarixində başa çatan kredit müqaviləsi bağlamışdır. 31 dekabr 2022-ci il tarixinə qalıq məbləği olmamışdır (31 dekabr 2021-ci il üzrə 93,684,403 AZN).

21 oktyabr 2022-ci il tarixində imzalanmış əlavə razılaşmaya əsasən kreditin ödəmə müddəti 28 fevral 2023-cü il tarixinə qədər uzadılmışdır. Lakin müqavilə öhdəlikləri vaxtından əvvəl, 27 dekabr 2022-ci il tarixində yerinə yetirilmişdir.

Borc alınmış vəsaitlərin ilin əvvəlinə və sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən yaranan müvafiq nağd və nağdsız pul dəyişiklikləri ilə üzləşdirilməsi aşağıda göstərilmişdir:

| | Məbləğ |
|---|---|
| **1 yanvar 2022-ci il** | **93,684,403** |
| **Pul vəsaitlərinin axını** | |
| Borc alınmış vəsaitlərin ödənilməsi | (93,500,000) |
| Borc alınmış vəsaitlər üzrə ödənilmiş faizlər | (1,009,441) |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 825,038 |
| **31 dekabr 2022-ci il** | - |

| | Məbləğ |
|---|---|
| **1 yanvar 2021-ci il** | - |
| **Pul vəsaitlərinin axını** | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 93,500,000 |
| Borc alınmış vəsaitlər üzrə ödənilmiş faizlər | (561,000) |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 745,403 |
| **31 dekabr 2021-ci il** | **93,684,403** |

Cəmiyyətin borc alınmış vəsaitlərinin coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 19. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə Cəmiyyətin buraxılmış nizamnamə kapitalının qeydə alınmış məbləğinin nominal dəyəri 13,538,682 AZN təşkil etmişdir.

31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə istifadəsinə icazə verilmiş adi səhmlərin cəmi sayı hər bir səhmin nominal dəyəri 2 AZN olmaqla 6,769,341 ədəd olmuşdur.

## 20. DİGƏR KAPİTAL

Xüsusi məqsədli maliyyə hesabatlılığı çərçivəsində, törəmə müəssisələr xüsusi məqsədli maliyyə hesabatlarına daxil edilməmişdir. Törəmə müəssisələrin 13,538,682 AZN məbləğində dəyəri digər kapital vasitəsilə xüsusi məqsədli maliyyə hesabatlarından çıxarılmışdır.

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, heç bir əhəmiyyətli hesablanmamış itki baş verməyəcək və müvafiq olaraq bu xüsusi məqsədli maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının vergi qanunvericiliyi müxtəlif şərh və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərliyin vergi qanunvericiliyinin təfsiri vergi orqanlarından fərqli ola biləcəyi üçün əməliyyatlara müvafiq orqanlar tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə əlavə vergilər, cərimələr tətbiq oluna və faizlər hesablana bilər.

Azərbaycan Respublikasında baş verən son hadisələr onu deməyə əsas verir ki, vergi orqanları qanunvericiliyin şərhində və qiymətləndirmələrdə daha iddialı mövqe tuta bilər və keçmişdə mübahisələndirilməyən əməliyyat və fəaliyyətlərə etiraz edilə bilər.

Nəticədə, əhəmiyyətli əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Maliyyə dövrləri, yoxlama ilindən əvvəlki üç təqvim ili üçün vergilərlə bağlı səlahiyyətli orqanlar tərəfindən yoxlanılması üçün açıq qalır.

Müəyyən şəraitdə rəylər daha uzun müddətləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun müvafiq qanunvericiliyin şərhi məqsədəuyğundur və Cəmiyyətin vergisi davamlı olacaqdır.

## 22. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyət əməliyyatlarının əsas elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Cəmiyyət effektiv və səmərəli risklərin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət risklərin idarə edilməsi qaydalarını yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətə qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risklərin idarə edilməsi qaydaları çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Cəmiyyət maliyyə aləti üzrə bir tərəfin öhdəliyi yerinə yetirməməsi və digər tərəfin maliyyə itkisinə məruz qalması riski olan kredit riskinə məruz qalır.

**Riskin maksimal həddi**

Cəmiyyətin məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

**Coğrafi konsentrasiya**

Aktivlər, öhdəliklər və kreditlə bağlı öhdəliklər qarşı tərəfin yerləşdiyi ölkəyə əsaslanır. Azərbaycan Respublikasında yerləşən kontragentlərlə bu kontragentlərin şirkətlərinə/şirkətlərindən faktiki ödənilməmiş qalıqlar "Azərbaycan Respublikası" başlığına yerləşdirilir.

Cəmiyyətin maliyyə aktiv və öhdəliklərinin coğrafi konsentrasiyası müvafiq qeydlərdə açıqlanmışdır.

**Likvidlik riski**

Likvidlik riski maliyyə aktivlərinin və öhdəliklərinin ödəmə müddətlərinin uyğun gəlmədiyi risk kimi müəyyən edilir. Likvidlik riski Cəmiyyətin Maliyyə şöbəsi tərəfindən idarə olunur. Cəmiyyətin likvidliyinin idarə edilməsi öhdəliklərin vaxtı çatdıqda onları ödəyə bilmək üçün likvid aktivlərin səviyyəsinin kifayət qədər olmasını, maliyyə resurslarına keçidin olmasını, maliyyə üzrə gözlənilməz planların olmasını və likvidlik nisbətlərinin qanuni tələblərə uyğunluğunu nəzərə almağı tələb edir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıda göstərilmişdir:

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 205,903,189 | - | - | 205,903,189 |
| Debitor borcları | 76,069,182 | - | - | 76,069,182 |
| **Cəmi maliyyə aktivləri** | **281,972,371** | **-** | **-** | **281,972,371** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 266,654,935 | - | - | 266,654,935 |
| **Cəmi maliyyə öhdəlikləri** | **266,654,935** | **-** | **-** | **266,654,935** |
| Likvidlik boşluğu | 15,317,436 | - | - | 15,317,436 |
| **Məcmu likvidlik boşluğu** | **15,317,436** | **15,317,436** | **15,317,436** | |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıda göstərilmişdir:

| | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 91,897,090 | - | - | 91,897,090 |
| Debitor borcları | 37,854,374 | - | - | 37,854,374 |
| **Cəmi maliyyə aktivləri** | **129,751,464** | **-** | **-** | **129,751,464** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 130,388,845 | - | - | 130,388,845 |
| Borc alınmış vəsaitlər | 184,403 | - | 93,500,000 | 93,684,403 |
| **Cəmi maliyyə öhdəlikləri** | **130,573,248** | **-** | **93,500,000** | **224,073,248** |
| Likvidlik boşluğu | (821,784) | - | (93,500,000) | (94,321,784) |
| **Məcmu likvidlik boşluğu** | **(821,784)** | **(821,784)** | **(94,321,784)** | |

31 dekabr 2022-ci il tarixinə borc alınmış vəsaitlər üzrə qalıq borclar olmadığına görə, 7 saylı MHBS-yə uyğun olaraq Cəmiyyətin maliyyə aktivləri və öhdəlikləri üzrə likvidlik riski mövcud olmamışdır.

31 dekabr 2021-ci il tarixinə 7 saylı MHBS-yə uyğun olaraq Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıda göstərilmişdir:

| | **Tələb ediləndək və ya 1 aydan az** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **Cəmi** |
|---|---|---|---|---|
| Maliyyə öhdəlikləri | | | | |
| Borc alınmış vəsaitlər | 263,818 | 151,144 | 94,020,038 | 94,435,000 |
| **Maliyyə öhdəlikləri üçün cəmi gələcək potensial ödənişlər** | **263,818** | **151,144** | **94,020,038** | **94,435,000** |

## Valyuta riski

Valyuta riski xarici valyuta məzənnələrindəki dəyişikliklər nəticəsində maliyyə alətinin dəyərinin dəyişməsi riski kimi müəyyən edilir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıda göstərilmişdir:

| | **AZN** | **ABŞ dolları** | **Cəmi** |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 205,903,189 | - | 205,903,189 |
| Debitor borcları | 76,069,182 | - | 76,069,182 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **281,972,371** | **-** | **281,972,371** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 188,783,063 | 77,871,872 | 266,654,935 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **188,783,063** | **77,871,872** | **266,654,935** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **93,189,308** | **(77,871,872)** | **15,317,436** |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıda göstərilmişdir:

| | AZN | ABŞ dolları | Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 91,897,090 | - | 91,897,090 |
| Debitor borcları | 37,854,374 | - | 37,854,374 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **129,751,464** | **-** | **129,751,464** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 43,536,943 | 86,851,902 | 130,388,845 |
| Borc alınmış vəsaitlər | - | 93,684,403 | 93,684,403 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **43,536,943** | **180,536,305** | **224,073,248** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **86,214,521** | **(180,536,305)** | **(94,321,784)** |

## 23. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin ehtimal olunan ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir.

Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri və ya amortizasiya olunmuş maya dəyərində tanınan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2022-ci il** | | **31 dekabr 2021-ci il** | |
|---|---|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 205,903,189 | 205,903,189 | 91,897,090 | 91,897,090 |
| Debitor borcları | 76,069,182 | 76,069,182 | 37,854,374 | 37,854,374 |
| Borc alınmış vəsaitlər | - | - | 93,684,403 | 93,684,403 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 266,654,935 | 266,654,935 | 130,388,845 | 130,388,845 |

Aşağıdakı cədvəl ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edir və onları hər bir ədalətli dəyərin ölçülməsinin aşağıda təsnif edildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyəyə görə təhlil edir:

| | | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə alətlərinin təsnifatı** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş maya dəyərində maliyyə aktivləri | 31 dekabr 2022-ci il | 205,903,189 | - | - | 205,903,189 |
| Debitor borcları | Amortizasiya olunmuş maya dəyərində maliyyə aktivləri | 31 dekabr 2022-ci il | - | - | 76,069,182 | 76,069,182 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya olunmuş maya dəyərində maliyyə öhdəlikləri | 31 dekabr 2022-ci il | - | - | 266,654,935 | 266,654,935 |

| | Maliyyə alətlərinin təsnifatı | Qiymətləndirmə tarixi | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|---|
| | | | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş maya dəyərində maliyyə aktivləri | 31 dekabr 2021-ci il | 91,897,090 | - | - | 91,897,090 |
| Debitor borcları | Amortizasiya olunmuş maya dəyərində maliyyə aktivləri | 31 dekabr 2021-ci il | - | - | 37,854,374 | 37,854,374 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya olunmuş maya dəyərində maliyyə öhdəlikləri | 31 dekabr 2021-ci il | - | - | 130,388,845 | 130,388,845 |
| Borc alınmış vəsaitlər | Amortizasiya olunmuş maya dəyərində maliyyə öhdəlikləri | 31 dekabr 2021-ci il | - | - | 93,684,403 | 93,684,403 |